# 2021-ci ilin xronikası

**14 yanvar** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Salima Abdelhak ilə görüşüb. Görüşdə, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.




**14 yanvar** tarixində Dövlət Gömrük Komitəsinin sədri, Ümumdünya Gömrük Təşkilatının Avropa regionu üzrə sədr müavini Səfər Mehdiyev ilə ÜGT Baş katibinin müavini Rikardo Trevino Çapa arasında videokonfrans formatında görüş keçirilib. Komitə sədrinin ÜGT-nin Avropa regionu üzrə sədr müavini kimi iştirak etdiyi görüş təşkilatın gələcək fəaliyyətinə həsr olunan və cari ilin 15-16 fevral tarixlərində keçiriləcək virtual regional seminarın təşkilati məsələlərinə həsr olunub.

**21 yanvar** tarixində Asiya İnkişaf Bankı və CAREC İnstitutunun birgə təşkilatçılığı ilə CAREC proqramı çərçivəsində "Bir Pəncərə Sisteminin İnkişafı" mövzusunda virtual seminar keçirilib. Tədbirin əsas məqsədi "Bir pəncərə" sisteminin yaradılması, texniki elementlər, hüquqi çərçivə və fəaliyyəti, zəruri informasiya texnologiyaları, gələcək inkişaf prinsipləri, bu istiqamətdə proqrama üzv dövlətlərin müvafiq qurumlarının iştirakı və digər məsələlər ətrafında müzakirələrin aparılması olub. Qeyd olunan tədbirdə Azərbaycan ilə yanaşı, Çin Xalq Respublikasının, Qazaxıstanın və Tacikistanın gömrük xidmətlərinin və CAREC İnstitutunun nümayəndələri, eləcə də beynəlxalq ekspertlər iştirak ediblər.

**29 yanvar** tarixində "Ümumi Tranzit Proseduru Konvensiyası, Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi Konvensiyası və Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (NCTS) qoşulma prosesində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə Dəstək" adlı Tvinninq Layihəsinin açılış tədbiri keçirilib. Videokonfrans formatında keçirilən tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas, İtaliyanın Azərbaycandakı səfiri Augusto Massari, İtaliyanın Gömrük və İnhisar Agentliyinin baş direktoru Marcello Minenna, Dövlət Gömrük Komitəsinin sədr müavinləri, komitənin aidiyyəti qurumlarının əməkdaşları, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin nümayəndələri və Avropa İttifaqının ekspertləri iştirak edib.

**11 fevral** tarixində İran İslam Respublikasının Astara şəhərində Azərbaycan və İran gömrük xidmətlərinin nümayəndələri arasında işçi görüş keçirilib. Tədbir İran İslam Respublikası Gömrük Administrasiyasının dəvəti əsasında baş tutub. Tədbirdə Azərbaycan və İran arasında mal və nəqliyyat vasitələrinin keçidinin sürətləndirilməsi və təhlükəsizliyi, iki ölkə arasında təsdiq olunmuş beynəlxalq baytarlıq sertifikatı əsasında İran İslam Respublikasının

ərazisindən tranzit keçməklə iri və xırdabuynuzlu heyvanlar, atlar, diri quş və quşçuluq məhsullarının, birgünlük cücələr və damazlıq yumurtaların Azərbaycan Respublikasından Naxçıvan Muxtar Respublikasına və əks istiqamətdə daşınmasının təmin edilməsi məsələləri müzakirə olunub.

**15-16 fevral** tarixlərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) strategiyasının müəyyənləşdirilməsində strateji proqnozlaşdırma metodologiyalarından istifadəyə dair Avropa Regionu üzrə Virtual Seminar keçirilmişdir. Seminarda Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, ÜGT Baş katibinin müavini Ricardo Trevino Çapa və təşkilatın Avropa Regionu üzv dövlətlərin gömrük xidmətlərinin nümayəndələri iştirak edib.

**6 mart** tarixində Ümumdünya Gömrük Təşkilatının Yük Hədəfləmə Sisteminin (YHS) tətbiqi ilə bağlı videokonfrans formatında 5 günlük təlim keçirilmişdir. Dövlət Gömrük Komitəsi ilə Ümumdünya Gömrük Təşkilatı arasında 27 aprel 2020-ci il tarixində Yük Hədəfləmə Sisteminin proqram təminatının tətbiq edilməsi üzrə Müqavilə imzalanıb. YHS yüklərə dair məlumatların toplanmasına, saxlanmasına və mübadilə edilməsinə imkan yaratmaqla risklərin qiymətləndirilməsi və idarəedilməsi üçün hazırlanmış bir proqramdır. Bu sistem, yüksək riskli yüklərin müəyyənləşdirilməsinə və aşağı riskli yüklərin gömrük sərhəd buraxılış məntəqələrindən keçidinin sürətləndirilməsinə, bununla da ticarətin asanlaşdırılmasına və təhlükəsizliyinin təmin edilməsinə imkan yaradır. Təlimdə DGK-nın strukturuna daxil olan müvafiq qurumların əməkdaşları iştirak edib.

**9 mart** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovla görüşüb. Görüşdə Komitənin aidiyyəti strukturlarının əməkdaşları və Rusiya Federasiyasının ölkəmizdəki səfirliyinin gömrük məsələləri üzrə müşaviri Georgiy Pesçanskix iştirak edib.




**11 mart** tarixində Dünya Bankının ekspertləri ilə özəl sektorun diaqnostikası çərçivəsində logistika sahəsinin qiymətləndirilməsi mövzusunda növbəti onlayn görüş keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Komitənin aidiyyəti qurumlarının nümayəndələri, Dünya Bakının eksperti Daniel Saslavski və bankın mütəxəssisləri iştirak edib.

**17 mart** tarixində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Əfqanıstan İslam Respublikasının gömrük xidmətinin ekspertləri üçün onlayn formatda seminar keçirib.

**17 mart** tarixində "Ümumi Tranzit Proseduru Konvensiyası, Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi Konvensiyası və Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (YKTS) qoşulmaq prosesində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə Dəstək" layihəsinin Rəhbər Komitəsinin 3-cü iclası keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, İtaliya Gömrük və İnhisar Agentliyi, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin nümayəndələri iştirak edib.

**18 mart** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakıda yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində, ofisin təşkilatçılığı ilə "Qaçaqmalçılığa qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin prioritetləri" mövzusunda vebinar keçirilib. Vebinara Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları da daxil olmaqla, Ümumdünya Gömrük Təşkilatının Avropa regionu üzrə 21 ölkəsinin gömrük administrasiyalarının 70-dən artıq nümayəndəsi qatılıb. Məqsəd qaçaqmalçılıq hallarının qarşısının alınması və bu istiqamətdə görüləcək təsirli tədbirlər, beynəlxalq əməkdaşlıq və istintaq strategiyalarının təşviqi məsələlərini, eləcə də əldə olunan son nailiyyətləri nəzərdən keçirmək olub.

**18 mart** tarixində Ümumdünya Gömrük Təşkilatının Baş katibi və Şura sədri, eyni zamanda, Şuranın sədr müavinlərinin iştirakı ilə onlayn formatda görüş keçirilib. Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev görüşdə ÜGT-nin Avropa Regionu üzrə sədr müavini qismində iştirak edib. Tədbir ÜGT-nin Siyasi Komissiyası və Şurasının iclaslarının nəticələrinə əsasən həyata keçirilən fəaliyyətlərin davam etdirilməsi üçün növbəti tədbirlərin planlaşdırılması, xüsusilə də iş metodlarının və prioritetlərin müəyyənləşdirilməsi məqsədilə keçirilib.

**5 aprel** tarixində Dövlət Gömrük Komitəsində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) təşkilatçılığı ilə Türkiyə və Özbəkistan Respublikalarının nümayəndə heyətləri ilə görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, komitənin aidiyyəti strukturlarının rəhbərləri, TDƏŞ Baş katibinin müavinləri Qismət Gözəlov, Mirvohid Azimov, Özbəkistan Nəqliyyat nazirinin müavini Abdusamat Muminov, bu ölkənin gömrük və nəqliyyat qurumlarının nümayəndələri, Türkiyə Beynəlxalq Daşıyıcılar Assosiasiyasının direktorlar heyətinin rəhbəri Alper Özel iştirak edib.

**6 aprel** tarixində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM-ın Ticarətə və Nəqletməyə Yardım layihəsi üzrə Rəhbəredici Komitəsinin onlayn formatda növbəti görüşü keçirilib. Tədbirdə Azərbaycan tərəfindən Dövlət Gömrük Komitəsinin aidiyyəti strukturlarının rəhbərləri və məsul şəxsləri iştirak ediblər.

**14-15 aprel** tarixlərində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında Gömrük məsələləri üzrə Birgə Komitənin dördüncü iclası keçirilib. İclasda Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, komitə sədrinin müavinləri və aidiyyəti qurumların rəhbərləri, Türkiyə Respublikası Ticarət nazirinin müavini Rıza Tuna Turaqayın rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında gömrük işi sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsinə dair müzakirələr aparılıb. Tədbirin sonunda Gömrük məsələləri üzrə Birgə Komitənin dördüncü iclasının protokolu və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında 2021/2022-ci illər üzrə gömrük işi sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsinə dair Tədbirlər Planı imzalanmışdır.



15 aprel tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar Türkiyə Respublikasının ölkəmizdəki səfiri Erkan Özoralla görüşüb.

20 aprel tarixində Ümumdünya Gömrük Təşkilatının Yük Hədəfləmə Sisteminin (YHS) Azərbaycan gömrük xidmətində tətbiqi ilə bağlı görülmüş işlərin yekunlaşmasını nəzərdə tutan sənədin onlayn imzalanması mərasimi keçirilib. Mərasimdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, komitənin müvafiq qurumlarının rəhbərləri, ÜGT-nin Baş katibi Kunio Mikuriya, bu qurumun Nəzarət və Asanlaşdırma üzrə direktoru Pranab Kumar Das, Administrasiya və Heyət üzrə rəhbəri Hans Pieters və digər şəxslər iştirak ediblər.

5 may tarixində Ümumdünya Gömrük Təşkilatının rəhbərliyi, Şura sədri və müavinlərinin iştirakı ilə onlayn formatda görüş keçirilib. ÜGT-nin Baş katibi Kunio Mikuriya, ÜGT Şurasının sədri Əhməd Əl Xəlifə və təşkilatın region üzrə sədr müavinlərinin iştirak etdiyi tədbirdə ÜGT-nin 2021-ci ilin iyun ayında keçiriləcək Siyasi Komissiyasının 84-cü və Şuranın 138-ci sessiyalarının gündəliyi, iclasın formatı barədə müzakirələr aparılıb.

17-19 may tarixlərində Ümumdünya Gömrük Təşkilatının Avropa regionunda "köklü dəyişmə yaradan texnologiyalar" sahəsində təcrübə mübadiləsi mövzusunda seminarı keçirilib. Onlayn seminarın açılış mərasimində ÜGT-nin Baş katibi Kunio Mikuriya, ÜGT-nin Avropa Regionu üzrə sədr müavini qismində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev iştirak ediblər. Tədbir zamanı müasir texnologiyaların, rəqəmsallaşmanın, süni intellektin gömrük sistemində tətbiqinə dair təqdimatlar keçirilib, "köklü dəyişmə yaradan texnologiyalar", blokçeyn texnologiyalarına inamın gücləndirilməsi, gömrük və sərhəd idarəçiliyi tələblərinin digər sektorlarda mövcud qərarlarla qarşılaşdırılması və digər mövzularda fikir mübadiləsi aparılıb.

17 may tarixində "Bergen sazişi"nə yenidən baxılması üzrə işçi qrupun ikinci iclası keçirilib. Onlayn formatda keçirilən iclasa Ümumdünya Gömrük Təşkilatının Avropa Regionuna rəhbərlik edən Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından Komitə sədrinin müavini, gömrük xidməti general-mayoru İqbal Babayev rəhbərlik edib. Tədbirə Avropa İttifaqı, Rusiya, İslandiya, Gürcüstan, Hollandiya, İspaniya, İsveç, Türkiyə, İtaliya, Qazaxıstan və Çexiyanın nümayəndələri qatılıb.

18 may tarixində Azərbaycan və Özbəkistan gömrük xidmətlərinin mütəxəssisləri arasında onlayn formatda görüş keçirilib. Görüşdə məqsəd tranzit prosedurunun tətbiqi, intellektual sərhəd-keçid məntəqələrinin və yoxlama-baxış komplekslərinin işinin təşkili sahəsində ölkəmizin təcrübəsinin öyrənilməsi olub.

**20 may** tarixində Moskva şəhərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev və Rusiya Federasiyası Federal Gömrük Xidmətinin rəhbəri Vladimir Bulavin arasında görüş keçirilib. Görüş Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə nümayəndə heyətinin Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində baş tutub. Görüşdə gömrük nəzarəti nəticələrinin elektron formada qarşılıqlı tanınmasına dair Protokolun tətbiqi, Yaraq-Qazmalar və Samur buraxılış məntəqələrində mövsümi xarakterli növbələrin aradan qaldırılması, yenidənqurma işlərindən sonra Tahirkənd-Qazmalar və Xanoba buraxılış məntəqələrinin fəaliyyətinin sinxronlaşdırılması, yük axınının Yaraq-Qazmalar-Samur avtomobil buraxılış məntəqəsindən Dərbənd-Yalama dəmiryolu məntəqəsinə paylanması məsələlərinə baxılıb. Tərəflər informasiya-kommunikasiya texnologiyaları sahəsində birgə əməkdaşlıq, Ümumdünya Gömrük Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyətin effektivliyinin artırılması barədə də müzakirələr aparıblar.

**21 may** tarixində Azərbaycan Respublikasının Gürcüstanla sərhəddə yerləşən "Qırmızı Körpü" gömrük-sərhəd buraxılış məntəqəsində Azərbaycan və Gürcüstan gömrük xidmətlərinin nümayəndə heyətləri arasında görüş keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Gömrük Sərhəd Buraxılış Məntəqələrinin İşinin Təşkili Baş İdarəsinin rəisi Şahin Ələsgərov, Qərb Ərazi Baş Gömrük İdarəsinin rəisi Rauf Rzayev və Komitənin digər aidiyyəti strukturlarının nümayəndələri, Gürcüstan Gəlirlər xidmətinin rəis müavini Vladimir Xundadze, Gömrük departamentinin rəhbəri Zurab Siçinava və digər səlahiyyətli şəxslər iştirak edib. Görüşdə Azərbaycan-Gürcüstan sərhədində inşa olunacaq "İpək yolu-Abreşumis Qza" gömrük-sərhəd buraxılış məntəqəsi, Bakı-Tbilisi-Qars dəmiryol layihəsi və hüquq-mühafizə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

**21 may** tarixində Alman-Azərbaycan Xarici Ticarət Palatasının Vergi, Gömrük və Hüquq Məsələləri İşçi Qrupunun onlayn şəkildə növbəti görüşü keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsinin rəisi Səməd Qaralov, komitənin aidiyyəti strukturlarının əməkdaşları, Alman-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumann, icraçı direktorun müavini Nigar Bayramlı, palatanın mütəxəssisləri və sahibkarlar iştirak edib. Görüşdə əqli mülkiyyət hüquqlarının qorunması, bu sahədə gömrük orqanları tərəfindən görülən işlər və əməkdaşlığın gücləndirilməsinə dair məsələlər müzakirə olunub.

**25 may** tarixində BMT-nin Avropa İqtisadi Komissiyası və Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının təşkilatçılığı ilə Beynəlxalq Yük Daşımaları Konvensiyasının 11-ci Əlavəsinin qüvvəyə minməsi ilə bağlı onlayn formatda tədbir keçirilib. Toplantıya BMT Avropa İqtisadi Komissiyasının İcraçı katibi Olga Algayerova, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının Baş katibi Umberto De Pretto, Azərbaycan, Türkiyə, Özbəkistan, Pakistan, Tacikistan, İran, Gürcüstan və Moldova gömrük xidmətlərinin nümayəndələri, aidiyyəti beynəlxalq qurumların təmsilçiləri qatılıb.

**1 iyun** tarixində Dövlət Gömrük Komitəsində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Konteyner Daşımalarına Nəzarət üzrə Qlobal Proqramının nümayəndəsi ilə görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev, komitənin aidiyyəti strukturlarının əməkdaşları, Konteyner Daşımalarına Nəzarət üzrə Qlobal Proqramın Qara dəniz regionu və Cənubi Qafqaz üzrə əlaqələndiricisi Naida Çamilova iştirak ediblər. Görüşdə, Proqram çərçivəsində əməkdaşlıq, limanlardakı nəzarət məntəqələri ilə bağlı vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.



**3 iyun** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bilal Haye ilə görüşüb.

**4 iyun** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı ilə görüşüb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

**8 iyun** tarixində Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin virtual konfransı keçirilib. Konfransda ÜGT-nin Baş katibi Kunio Mikuriya, ÜGT Şurasının sədri Əhməd Əl Xəlifə, ÜGT Baş katibinin müavini Rikardo Trevino Çapa, təşkilatın Avropa Regionunun 53 üzv dövlətinin gömrük xidmətlərinin rəhbərləri iştirak edib. rəhbərlik edir. Konfransa ÜGT-nin Avropa Regionu üzrə sədr müavini, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev sədrlik edib. Tədbirdə təşkilatın Strateji Proqnozlaşdırma layihəsi, Fəaliyyətin Qiymətləndirilməsi sisteminin inkişafı, idarəetmənin təkmilləşdirilməsi, seçkilər və digər məsələlərlə bağlı çıxışlar dinlənilib, fikir mübadiləsi aparılıb. Konfrans çərçivəsində ÜGT-nin Avropa Regionuna sədrlik etdiyi dövrdə səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Avropa Regionunun Şərq qrupu tərəfindən ÜGT-nin Siyasi Komissiyasına namizədliyi irəli sürülüb və Azərbaycan gömrük xidməti yekdilliklə 2021-2023-cü illər üzrə Siyasi Komissiyaya üzv seçilib.

**16 iyun** tarixində Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı biznes qrupunun nümayəndələri arasında görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, Birləşmiş Krallığın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ceyms Layl Şarp, Birləşmiş Krallığın Azərbaycandakı biznes qrupunun rəhbəri Con Patterson və bu ölkədən olan iş adamları iştirak edib.

**18 iyun** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai ilə görüşüb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.




**21-22 iyun** tarixlərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Siyasi Komissiyasının iki günlük sessiyası keçirilib. Onlayn formatda keçirilən sessiyada Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev ÜGT Şurasının Avropa Regionu üzrə sədr müavini qismində iştirak edib.

**22 iyun** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakıda yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Əqli Mülkiyyət Hüquqları: Biliklərin Təkmilləşdirilməsi və Təcrübələrin Paylaşılması" mövzusunda vebinar keçirilib. Regional Ofisin təşkilatçılığı ilə baş tutan vebinarda Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT), Ümumdünya Gömrük Təşkilatı (ÜGT) və "Schmitt & Orlov İntellectual Property" beynəlxalq şirkəti, eləcə də Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi də daxil olmaqla Ümumdünya Gömrük Təşkilatının Avropa Regionunda təmsil olunan 20 ölkənin gömrük administrasiyalarının 100-dən artıq nümayəndəsi iştirak edib.

**24-26 iyun** tarixlərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Gömrük Əməkdaşlıq Şurasının 138-ci sessiyası keçirilib. Onlayn formatda keçirilən sessiyada Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov təmsil edib. Üç gün davam edən sessiya çərçivəsində potensialın gücləndirilməsi istiqamətində əldə olunan nailiyyətlər, tarif və ticarət əlaqələri, siyasət və idarəçilik, büdcə və maliyyə və digər məsələlərlə bağlı müzakirələr aparılıb, eləcə də Gömrük Əməkdaşlıq Şurasının rəhbərliyinə seçkilər keçirilib. Əhməd Əl Xəlifə növbəti dəfə ÜGT Şurasına sədr seçilib. Budan əvvəl, ÜGT Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin konfransı çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Avropa Regionunun Şərq qrupu tərəfindən ÜGT-nin Siyasi Komissiyasına namizədliyi irəli sürülmüşdü. Gömrük Əməkdaşlıq Şurasının 138-ci sessiyasında keçirilən seçkilər zamanı ÜGT-nin Avropa Regionuna sədrlik etdiyi dövrdə səmərəli fəaliyyətinə görə Azərbaycan gömrük xidmətinin 2021-2023-cü illər üzrə Siyasi Komissiyaya üzvlüyü yekdilliklə təsdiqlənib.

**6 iyul** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevlə İran İslam Respublikasının Gömrük Administrasiyasının prezidenti Mehdi Mirəşrəfi arasında onlayn formatda görüş keçirilmişdir. Görüşdə qarşılıqlı maraq doğuran bəzi məsələlərlə bağlı müzakirələr aparılmışdır.

**11 iyul** tarixində Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı, Türkiyə Respublikasının Gəncə şəhərindəki Baş konsulu, səfirliyin ticarət müşavirləri Dövlət Gömrük Komitəsinin aidiyyəti strukturlarının rəhbərləri ilə birlikdə iş fəaliyyəti ilə yaxından tanış olmaq məqsədilə Qərb Ərazi Baş Gömrük İdarəsinin Gürcüstanla sərhəddə yerləşən "Qırmızı Körpü" gömrük postuna baş çəkiblər.

**14 iyul** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Serbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavljeviçi qəbul edib. Görüşdə qarşılıqlı maraq doğuran bəzi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**3 avqust** tarixində Özbəkistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov Dövlət Gömrük Komitəsinin Akademiyası və Kinoloji Mərkəzinin fəaliyyəti ilə tanış olub. Dövlət Gömrük Komitəsinin Akademiyasında keçirilən görüşdə Akademiyanın rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov təhsil ocağının yaranması və fəaliyyəti barədə məlumat verib.

**5 avqust** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları gömrük işinin müxtəlif sahələri üzrə əldə etdikləri qabaqcıl təcrübəni özbəkistanlı həmkarları ilə bölüşüblər. Bu məqsədlə hər iki ölkənin gömrük əməkdaşları arasında onlayn formatda görüş keçirilib.

**5 avqust** tarixində Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin gömrük məsələləri üzrə müşaviri Georgiy Pesçanskixın rəhbərlik etdiyi nümayəndə heyəti Şimal Ərazi Baş Gömrük İdarəsinin Rusiya Federasiyası ilə sərhəddə yerləşən "Samur" və "Xanoba" gömrük postlarının fəaliyyəti ilə tanış olub. "Samur" gömrük postunda keçirilən görüşdə iki ölkə arasında ticarət əlaqələrinin inkişaf etdirilməsinin vacibliyinə toxunulub, malların və nəqliyyat vasitələrinin sərhədkeçmə proseslərinin sürətləndirilməsi və sinxronlaşdırılması, gömrük-keçid məntəqələrində yaranan mövsümi sıxlıqların aradan qaldırılması üçün birgə fəaliyyətin təşkilinə dair məsələlər müzakirə olunub.

**18 avqust** tarixində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Tranzit Nəqliyyatı üzrə Əlaqələndirmə Şurasının Gömrük Tranzit Komitəsinin onlayn formatda 7-ci iclası keçirilib. İclasda İƏT üzv dövlətlərinin gömrük və nəqliyyat qurumları, eləcə də Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı (IRU) və milli BYD zəmanət birliklərinin nümayəndələri iştirak ediblər. Tədbir zamanı tranzitin inkişafı sahəsində üzv dövlətlər tərəfindən həyata keçirilmiş tədbirlər, İƏT-in Tranzit Nəqliyyatı Çərçivə Sazişinin (TTFA) icrası, İƏT nəqliyyat dəhlizlərində yerinə yetirilmiş tranzit layihələri üzrə yeniliklər, İƏT regionunda tranzit əməliyyatlarının rəqəmsallaşdırılması, regional dövlət-özəl sektor tərəfdaşlığı, COVID-19 pandemiyası dövründə sərhəd-keçid əməliyyatlarının tənzimlənməsi məsələləri müzakirə olunub.

**7 sentyabr** tarixində “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikası Ticarət Nazirliyi arasında 2021/2022-ci illər üzrə gömrük işi sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərililiyinin yüksəldilməsinə dair Tədbirlər Planı”na uyğun olaraq, qardaş ölkənin Ticarət Nazirliyinin Gömrük Hüquq-Mühafizə Baş İdarəsinin əməkdaşları respublikamıza işgüzar səfər olmuşlar.



**7 sentyabr** tarixində Dövlət Gömrük Komitəsində Amerika Birləşmiş Ştatlarının Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları ilə görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsi Əməliyyat və İstintaq Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Məsum Rəsulov, ABŞ-ın Narkotiklərlə Mübarizə İdarəsinin Orta Asiya Regionu üzrə rəis müavini Robert Eller və digər səlahiyyətli şəxslər iştirak ediblər. Görüş zamanı qarşılıqlı əməkdaşlığın, xüsusilə məlumat mübadiləsinin daha da gücləndirilməsinin zəruriliyi vurğulanıb.

**15 sentyabr** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional ofisində "Ümumi Tranzit Proseduru Konvensiyası, Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi Konvensiyası və Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (YKTS) qoşulmaq prosesində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə dəstək" tvinninq layihəsinin Rəhbər Komitəsinin 4-cü iclası keçirilib. Avropa İttifaqının dəstəyi ilə həyata keçirilən layihə İtaliya Gömrük və İnhisar Agentliyi tərəfindən icra edilir. Layihənin məqsədi Dövlət Gömrük Komitəsinin 20 may 1987-ci il tarixli Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi haqqında Konvensiyasına, Ümumi Tranzit Konvensiyasına (CTC) və Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə qoşulmasının hazırlıq prosesində müvafiq hüquqi, inzibati və texniki mühitin yaradılmasına dəstək verilməsidir.

**18 sentyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev ilə Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya arasında onlayn formatda görüş keçirilib. Görüşdə əməkdaşlığın daha da gücləndirilməsi, beynəlxalq ticarətin inkişafının dəstəklənməsi istiqamətində gələcəkdə atılacaq addımlar, görüləcək işlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

**22-23 sentyabr** tarixlərində Narkotik qaçaqmalçılığı ilə mübarizədə gömrük orqanlarının kinoloji bölmələrinin rolu və yeri" mövzusunda beynəlxalq kinoloji seminar keçirilib. Tədbir videokonfrans formatında təşkil olunub. Seminarda Azərbaycan, Türkiyə, Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Macarıstan, Almaniya, Latviya, Koreya, Monqolustan, Polşa, Slovakiya, Finlandiya, Çexiya və digər ölkələrin gömrük orqanlarının kinoloji xidmət rəhbərləri və nümayəndələri iştirak ediblər.

**23 sentyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Corc Diki qəbul edib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

**28 sentyabr** tarixində Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramının Gömrük Əməkdaşlığı Komitəsinin 20-ci iclası keçirilib. Videokonfrans formatında təşkil olunan tədbirə Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük-xidməti general mayoru Cavad Qasımov sədrlik edib. İclasda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndəsinin təklifinə əsasən Asiya İnkişaf Bankı və CAREC İnstitutunun dəstəyi çərçivəsində elektron "bir pəncərə" sisteminin Azərbaycan və digər CAREC üzv dövlətləri tərəfindən tətbiqinin layihələndirilməsi məsələsinə baxılması qərarlaşdırılıb. Eləcə də CAREC nümayəndəsinin təklifi ilə "CAREC-in təkmilləşdirilmiş tranzit sisteminin və məlumatların ümumi mübadiləsinin pilot yoxlanılmasına dair üçtərəfli Saziş" layihəsinin Azərbaycan Respublikası ilə Gürcüstan arasında imzalanması istiqamətində işlərin başlanılmasına dair qərar qəbul edilib.

**5 oktyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli ilə görüşüb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.



**7 oktyabr** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional ofisində "Avropa Birliyində tranzit prosedurunun qanunvericilik çərçivəsi: gömrük idarələrinin rolu, zəmanətlər, sadələşdirmələr, sorğu və bərpa prosedurları" mövzusunda seminar keçirilib. Tədbir "Ümumi Tranzit Proseduru Konvensiyası, Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi Konvensiyası və Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (NCTS) qoşulmaq prosesində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə dəstək" tvinninq layihəsi çərçivəsində təşkil olunub.

**8 oktyabr** tarixində İzmir şəhərinə edilən işgüzar səfər çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev və Türkiyə Respublikası Ticarət nazirinin müavini, Gömrük Administrasiyasının rəhbəri Rıza Tuna Turaqay arasında görüş keçirilib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.



**8 oktyabr** tarixində İzmir şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan hökumətləri arasında gömrük məsələləri üzrə üçtərəfli görüş keçirilib. Görüşdə Türkiyə Respublikası Ticarət nazirinin müavini, Gömrük Administrasiyasının rəhbəri Rıza Tuna Turaqayın, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevin və Gürcüstan Maliyyə Nazirliyi Gəlirlər Xidmətinin Baş direktoru Levan Kakavanın rəhbərliyi ilə nümayəndə heyətləri iştirak edirdilər. Görüşün məqsəd ticarətin asanlaşdırılması, tranzit potensialının artırılması və regional iqtisadi inteqrasiyaya yardım edilməsi və bu istiqamətdə müzakirələrin aparılması olmuşdur. Sonra görüşdə gömrük əməkdaşlığına dair bir sıra məsələlər, o cümlədən gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti sahəsində və sərhəd-keçid məntəqələrində əməkdaşlığın gücləndirilməsi, BYD prosedurlarının rəqəmsallaşdırılması, Türkiyə-Naxçıvan-Azərbaycan-Gürcüstan dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu barədə müzakirələr aparılmışdır. Tərəflər Türkiyə, Azərbaycan və Gürcüstan gömrük orqanları arasında üçtərəfli komitənin yaradılmasının mühüm əhəmiyyət kəsb etdiyini bildirib, operativ əlaqələrin təmin edilməsi məqsədilə əməkdaşlığın daha da gücləndirilməsi barədə razılığa gəliblər. Tədbirin sonunda Azərbaycan, Gürcüstan və Türkiyə gömrük xidməti rəhbərləri arasında görüşün Protokolu və "Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin yaradılması haqqında Protokol" imzalanıb.



**25 oktyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Hüquq-Mühafizə Təlimləri üzrə Avropa İttifaqı Agentliyinin (CEPOL) icraçı direktoru Detlef Şröderin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə CEPOL tərəfindən həyata keçirilən və ölkəmizin də iştirak etdiyi TOPCOP (mütəşəkkil cinayətkarlığa qarşı təlim və əməliyyat tərəfdaşlığı) layihəsinin icrası, gələcək əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə olunub.

29 oktyabr tarixində Dövlət Gömrük Komitəsi rəhbərliyinin Alman-Azərbaycan Xarici Ticarət Palatasının üzvləri ilə görüşü keçirilib.



3 noyabr tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Türkiyənin Florence Nightingale Hastaneler Qrupunun icraçı direktorunun müavini Sinan Nazif Aran ilə görüşüb. Görüşdə, tibb sahəsində yeniliklərin tətbiqi üçün əməkdaşlığın perspektivləri, həmçinin birgə əməkdaşlıq çərçivəsində Mərkəzi Gömrük Hospitalının infrastrukturunun genişləndirilməsi, yeni korpusun tikintisi ilə bağlı məsələlər müzakirə edilib.

16 noyabr tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevin rəhbərliyi etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanı Krallığında rəsmi səfərdə olub. DGK sədri Səfər Mehdiyev Ər-Riyad şəhərində bu ölkənin Zəkat, Vergi və Gömrük Orqanının Baş direktoru Suheyl bin Məhəmməd Əbənimi ilə görüşüb. Görüşdə idarələrarası qarşılıqlı əməkdaşlıq münasibətləri barədə müzakirələr aparılmış və "Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş" imzalanmışdır.



16-19 noyabr tarixlərində Ümumdünya Gömrük Təşkilatının Bakıda yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Qlobal Konteyner Daşımalarına Nəzarət Proqramı" çərçivəsində təlim keçirilib. Təlim Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və

Cinayətkarlığa qarşı Mübarizə İdarəsi və Ümumdünya Gömrük Təşkilatının birgə layihəsi olan "Qlobal Konteyner Daşımalarına Nəzarət Proqramı" çərçivəsində həyata keçirilib. Təlimdə analitik araşdırma metodları, cinayət xarakterli məlumatların araşdırılması, əməliyyat məlumatlarının təhlili, operativ təhlil, müxtəlif texnikalar barədə məlumatlar iştirakçıların diqqətinə çatdırılıb.

**22-26 noyabr** tarixlərində Bakı şəhərində Hüquq-Mühafizə Təlimləri üzrə Avropa İttifaqı Agentliyinin (CEPOL) "Mütəşəkkil Cinayətkarlığa qarşı Təlim və Əməliyyat Tərəfdaşlığı" ("TOPCOP") layihəsi çərçivəsində "Dark-Vebdə odlu silah və partlayıcı maddələrin qanunsuz alveri" mövzusunda təlim keçirilib. Təlimdə Dövlət Gömrük Komitəsinin əməkdaşları iştirak ediblər.

**25 noyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı ilə görüşüb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

**26 noyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev ilə Ümumdünya Gömrük Təşkilatı Baş katibinin müavini Rikardo Trevino Çapa arasında videokonfrans formatında görüş keçirilib. Görüşdə bu ilin dekabrında keçiriləcək ÜGT Siyasi Komissiyasına təqdim edilməsi nəzərdə tutulan 2022-2025-ci illər üzrə Strateji Planın prioritetləri ilə bağlı müzakirələr aparılıb.

**29 noyabr** tarixində Dövlət Gömrük Komitəsində "TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Baş katibi Aset Asavbayevlə görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Komitənin aidiyyəti strukturlarının rəhbərləri, TRACECA-nın Azərbaycandakı nümayəndəsi Rüfət Bayramov iştirak ediblər. Görüşdə TRACECA üzərindən yükdaşımaların sadələşdirilməsi, rəqəmsallaşdırılması və yeni layihələrin tətbiqi məsələləri müzakirə olunub.

**29 noyabr** tarixində Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev ölkəmizdə səfərdə olan Mərkəzi Asiya Regional İnformasiya Əlaqələndirmə Mərkəzinin (CARICC) direktoru Rustam Miralizodanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib. Mərkəzi Asiya Regional İnformasiya-Əlaqələndirmə Mərkəzinin direktoru Rustam Miralizoda Ümumdünya Gömrük Təşkilatının Bakıda yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində də olub. İşçi görüş zamanı təlim-tədris, potensialın gücləndirilməsi sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi, gələcək əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

**1-3 dekabr** tarixlərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Avropa Regionu üçün "Harmonikləşdirilmiş Sistem 2022-nin tətbiqi" mövzusunda onlayn seminar keçirilib. ÜGT-nin Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisi tərəfindən təşkil olunan təlimdə qurumun Avropa Regionuna üzv dövlətlərinin gömrük orqanlarının əməkdaşları iştirak ediblər. Seminar Avropa Regionunun üzvləri tərəfindən Harmonikləşdirilmiş Sistem 2022 Nomenklaturasının müddəalarının vahid təfsirini və tətbiqini təmin etmək məqsədilə təşkil olunub.

**13-16 dekabr** tarixlərində videokonfrans formatında Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Siyasi Komissiyasının 85-ci sessiyası keçirilmişdir. İclasda ÜGT-nin baş katibi Kunio Mikuriya, ÜGT Şurasının sədri Əhməd Əl Xəlifə, Siyasi Komissiyanın 24 üzv dövlətlərinin

nümayəndələri iştirak ediblər. Sessiyada Siyasi Komissiyanın üzvü olan ölkəmizi Dövlət Gömrük Komitəsi adından Komitə sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov təmsil edib. Sessiya çərçivəsində ÜGT-nin prioritetləri, 2022-2025-ci illər üzrə strateji planı, biznesin davamlılığı, alternativ maliyyə mənbələri üzrə müqayisəli təhlil və digər məsələlər müzakirə olunmuşdur.

**22 dekabr** tarixində Dövlət Gömrük Komitəsində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev və Komitənin aidiyyəti qurumlarının əməkdaşları, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya üzrə regional təmsilçisi Aşita Mittalın rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Daha sonra görüşdə "2022-2025-ci illər üçün Azərbaycan Respublikası ilə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi arasında əməkdaşlıq üzrə yol xəritəsi", "Qlobal Konteyner Daşımalarına Nəzarət Proqramı çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi" və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.